# FİLOLOGİYA
# ФИЛОЛОГИЯ
# PHILOLOGY

## *ƏDƏBİYYATŞÜNASLIQ*
## *ЛИТЕРАТУРАВЕДЕНИЕ*
## *LITERARY CRITICISM*

*UOT 82.0*

# BƏDİİ SİMVOLDA EKOMƏDƏNİYYƏTDƏN EKOCƏMİYYƏTƏ İNTEQRASİYA

**Günay Ağaməhəmməd qızı Qarayeva**
*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun*
*Təhsil şöbəsinin müdiri filolofiya üzrə fəlsəfə doktoru, dosent*
**ORCİD:** 0000-0002-9934-019X
**E-mail:** gunaygarayeva@gmail.com

***Açar sözlər:*** *təbiət, ekologiya, simvol, mədəniyyət, cəmiyyət*
***Ключевые слова:*** *природа, экология, символ, культура, общество*
***Keywords:*** *nature, ecology, symbol, culture, society*

Çağdaş ədəbiyyatda yeni metodların tətbiqi, təkmilləşən konsepsiyalar mədəni, əxlaqi, psixoloji aspektdən mövcud münasibətlərin yenidən dəyərləndirlməsi, tarixən mövcud olan insan-təbiət əlaqələrinə nəzəri baxış sistemlərini bir araya gətirir. Eko, ekologiya, ekotənqid, ekolinqvistika, ekopoetika müasir dövr insan-təbiət münasibətlərində mədəni-əxlaqi, psixoloji əlaqələrin qurulmasına, mövcud ənənəvi harmoniyaya qarşı disharmoniyanın yaranması faktorlarının elmi-nəzəri izahının şərhinə istiqamətlənir.

Simvol-mədəniyyət-cəmiyyət üçlüyü fəlsəfi, sosioloji, tarixi, kulturoloji yönümdən insan, cəmiyyət, mədəni sferada əlaqələrin qurulması və tənzimlənməsində önəmli və birgə funksiya daşıyıcısına çevrilir, hər üç anlayış ətraf mühit, təbiət və ekoloji mühitlə əlaqələrin yaranması, inkişafı meyarlarına söykənir.

XX əsrin ortalarından başlayaraq ekoloji böhran, ETT, insan-təbiət münasibətlərindəki mövcud əlaqələrin qırılması, xaosun yenilənməsi bədii söz sənətində də mədəniyyətdə mövcud olan mənəvi, əxlaqi dəyərlərin dəyişilməsinə gətirib çıxardı.

Nizam, intizam, gözəllik, bir sözlə, bəşərin nizamlı davamı harmoniya – insan-təbiət arasındakı ilişkilərin bir-birini tamamlanmasından yaranır. Harmoniya pozulduqda xaos yaranır. Xaosun nizama salınması isə iki tərəfin - təbiət və insan münasibətlərinin arasında yaranan tarazlığa əsaslanır. S.A. Lipin yazır: "Təbiətin ətrafında insan yalnız obyektiv maddi reallıqları hiss etmir, həm də əvvəlki nəsillərin poetik təcrübəsinin gerçəkliyini hiss edir" (1, s. 163-164).

Ekoloji bərpanın "mif üsulu" təbiət-insan əlaqələri, bağlılıqları üzərində qurulur. Bu bağlılıqlar qırıldıqda ekoloji tarazlığın pozulması mənəvi tarazlığın itməsi ilə bir araya düşür. İnsanın hər zaman güvəndiyi, güc aldığı arxalandığı varlıq təbiət olub. Dünyanın ilk yaranış modelində

ağac, dağ, qurd, dəniz, qaya, daş və d. təbiət atributları xaosun idarəedicisi, cəmiyyətin tənzimləyici funksiyanı yerinə yetirirlər.

Təbiətlə baş-başa vermək, ünsiyyət qurmaq, dərd ortağı, munis dost kimi onunla söhbətləşmək bədii düşüncə faktı kimi ta qədimlərdən mövcud olmuşdur. İnsanın təbiətə hər zaman mənəvi və fiziki ehtiyacı olub. Çünki insanı formalaşdıran, ona güc, qüvvət verən təbiətdir. S. Vurğunun "Dağlar", Q. Qasımzadənin "Gəlmişəm", "Dağlar buraxmır məni", M. Arazın "Dağlara çağırış", "Dağlar küsüb", M. Yaqubun "Dağlar, məni qəbul edin", M. Aslanın "Dağlar həsrətimi duyacaqdımı", A. Zeynallının "Dağlardan ayrılanda" və s. şeirlərdə babalarımızın dağlardan güc və qüvvət alması yeni insanın da insan-təbiət qarşıdurmasında ilk daldalandığı məkan kimi dəyişməz olaraq qalır.

Səndən ayrılanda dağlar, cavandım
İndi görüşünə qoca gəlmişəm (2, s. 13).

"Dağlara" canlı bədii obraz kimi simvolik məzmun vermək, onu obrazlaşdırmada el ağsaqqalı, müdrik qoca kimi yanaşma Qasım Qasımzadə şeirində özünəqayıdış, özünüdərk etmə kimi səciyyələnir. Dağın böyüklük, ucalıq rəmzi kimi müqəddəs statusu müasir şeirdə təzələnir və dağın simvolik statusunun yenilənməsi, bədii obrazın kult, dəyər anlamının təzələnməsinə yönəlir.

XX əsrə doğru təbiət antitəbiət qarşıdurması tərəflər arasında tarazlığın pozulması, təbiiliyə qarşı sivilizasiyanın yeni təbiət kultunun yaranması ilə müşahidə olunur. Təbiət-insan münasibət və bağlılıqlarına ikinci tərəfin – ağıl, düşüncə predmetinə çevrilən sivilizasiyanın qoşulması tərəflər arasında pozulan əlaqələrin bərpaedicisini itirir. Nizam və harmoniyanın pozulmasına, təbiət-sivilizasiya qarşıdurmasına bəşər tarixinin inkişafı aspektində fəlsəfi, psixoloji, bədii və obrazlı yön verən ədəbiyyatşünas prof. Y. Qarayev yazırdı: "Antitəbiətlə mübarizədə insan həmişə Təbiətin özünə güvənib, onun bətnində, qoynunda qaygı, yuva və ocaq tapıb. Lakin təbiət antitəbiət müxalifəti daha sonralar özünü təbiət – sivilizasiya qarşıdurması şəklində də göstərə bilib. Assimilyasiya İnsanla (mədəniyyətlə!) təbiət arasında başlayıb. Zərərə kim məruz qalıb? Əvvəlcə İnsan! Və bu zaman Təbiət dərhal ona köməyə tələsib" (3, 588). "Diriliyin xilaskarı" öz yerini simvolik olaraq diriliyin xilaskarına verir, bu insanın varlığın davamı, yaşamı üçün dərin mənəvi məsuliyyətini üzə çıxarır. İlk olaraq təbiətin xilaskar qismində təqdimi ekomədəniyyətin yeni xilaskar tipə, ekocəmiyyətə keçidi ilə yeniləndi. Mədəniyyətin qavranılması və dərk olunmasında ümummədəniyyət kontekstində fərdiləşən, simvolların ənənəvi, mədəni layları ekomədəniyyətdən çıxaraq zaman, ideologiya, cəmiyyətin dərk olunması və yeni insan-təbiət münasibətlərinin qurulmasında yaranan ekocəmiyyət modelində yeni xüsusiyyətlər əldə etdi. İki doğma qütb arasında ilkin olaraq yaranan doğmalıq, tərəflər arasında harmoniyanın mövcudluğu onların bir-birini nəinki müstəqil şəkildə anlamaq, həm də bir-birinə tapınmaq, bir-birindən güc almaq, nəhayət biri olmadan digərinin mövcudluğu mümkün olmadığı anlama gəlib. Ekocəmiyyət modeli insan-təbiət arasında disharmoniya, tərəflər arasında əlaqələrin qırılması, nizamın pozulması, ekoloji böhranın yaranmasına gətirib çıxardı. Ekomədəniyyətdə insanın hər zaman təbiətə ehtiyacı var, o hər zaman o mənəvi ehtiyacı ödəmək üçün təbiətlə ünsiyyət qurur, dərdini bölüşür, ortaq məqamlar təbiətlə ünsiyyətdə meydana çıxır. Təbiət, təbiət varlıqları rəmz, obraz, obyekt olmaqla yanaşı, həm də canlı varlıqdır, ünsiyyət quranın,

yaşam mücadiləsi aparan insanın məskənidir, özüdür. Əski çağ anlamında ovçu-ceyran, gül-bülbül, bənövşə, lalə, insan və təbiətə aid olaraq bir anlamada araya gəlir, hər biri canlı obraza çevrilir. Ovçu ovlayan, ceyran isə ovlanan, hər ikisi təbiət daxilindədir, ondan kənar və ya fərqli statusda deyil, tərəflərin hər ikisi bir məzmundan boy vermişdir. Amma sivilizasiya, insan-təbiət qarşıdurması, dishormoniya, xaosun əvəzlənməsi artıq rəmzi olaraq dərk edilmiş, tipoloji - simvolik modelin yenilənməsi ilə müşahidə olunur. Lirik qəhrəmanın "Ovçu insaf elə, keçmə bu düzdən, o ellər qızını ayırma bizdən" (S.Vurğun), "Ceyran azalıb, yaman azalıb" (M.Araz), "Bir yolluq kəsildi Mildən, Muğandan, Qamçıya sap oldu ceyran ayağı" (H.Kürdoğlu) kimi misralar varlıqların eynihüquqlu kimi deyil, əksiliklərin mübarizəsində məğlub təbiətə digər adekvat canlının səmimi, acizanə etirafları idi.

İnsan-təbiət münasibətlərində öz nizamını qoruyan təbiət, digər tərəfdə isə nizama qarşı ağlı, gücü ilə qalib gəlməyə çalışan insanın fəaliyyət məkanı olaraq təbiətdə yaratdığı disharmoniya təbiət-sivilyasiya qarşıdurmasında hər iki tərəfin fəlakətə uğramasına səbəb olub.

Simvolik model olaraq bir çox təbiət obyektlərinə münasibətin ekomədəniyyətdən ekocəmiyyətə keçiddə dəyişilib yenilənməsi bədii düşüncənin həmin obrazlara münasibətin müxtəlif mərhələlər üzrə açılıb mənalandırılmasında daha səmətəli və əyani görünür. Mifoloji təsəvvürlərdə müxtəlif anlamları ifadə edən təbiət obyektlərinə sivilizasiyanın, ekoloji şüurun formalaşdırdığı nöqteyi-nəzərdən yanaşma poeziyada ekocəmiyyət modeli olaraq ənənəvi simvolların fərqli müstəvidə ifadə və təqdim üsulunun yenilənməsi ilə müşahidə edildi. Mifoloji görüşlərdə "həyat ağacı", "kosmik ağac", "yaşam ağacı", "müqəddəs ağac" anlamları ağacla bağlı ilkin təsəvvürlərlə əlaqəlidir. Kök, universal simvol olaraq ağacın bütün mədəniyyətlərdə simvolik və müqəddəs anlamda dərk olunması və onun tanrını simvolizə etməsi ilə bağlı görüşlərə bir çox mənbələrdə rast gəlmək mümkündür (4, s. 269; 5, s. 151; 6, s. 160). Ağacın quruluş və model olaraq üç formatda – kök, gövdə və budaqlarının simvolik olaraq yerin alt və üst qatını, göyü təmsil etməsi, bir-birindən fərqli və eləcə də bir-birinə bağlı bu üç aləm arasında bağları qurması, canlı, əbədi və müqəddəs məzmun qazanması (7, s. 316-317) bütün mədəniyyətlərdə ortaq simvolik anlam baxımından eynidir. Bir çox simvolik anlamlar daşıyan ağac, ağac-insan, ağac-varlıq anlamlarında simvolik təyinatını müəyyənləşdirmiş, həm mifoloji (ekomədəniyyət), həm də sosial-psixoloji (ekocəmiyyət) anlamda simvolik obraz xüsusiyyəti kəsb etmişdir. Ağacların kəsilməsi, meşələrin qırılması, bulaqların itməsi, insanın təbiət üzərində hökmranlığının psixoloji yaşantılarda ifadəsi hələ 1960-cı illər şeirində ən aparıcı yönümlərdən biri idi. F. Qocanın "Qovaqlar yıxılır", M. Yaqubun "Qarağaclar", "Zərnavada bağlar gördüm" şeirlərində meşələrin qırılması, ağacların qırılıb məhv edilməsi, quruması faktı ekoloji böhranın yaratdığı qlobal vəziyyətin nəticəsi olaraq yanğılı, kədərli etiraflarla bitmir, insan-təbiət münasibətlərindəki ziddiyyətlərin fəlsəfi, mənəvi-psixoloji tərəflərinin simvollaşmasına, mədəni yaddaşda mövcud olan mədəni-tarixi bağların qırılması dramatizmini əks etdirir.

M. Yaqubun "Qarağaclar" şeirində isə ağac kultu ağac-insan modelində ekocəmiyyətə inteqrasiyada yalnız təbiətə qayğı, mərhəmət, təəssübkeşlik hissi oyatmır, yeni müstəvidə simvolikləşərək ictimai-sosial məzmunla, insanlararası faciələrin bədii-fəlsəfi ümumiləşməsinə çevrilir. "Əyilməyib son nəfəsdə", "Quruyurlar ayaq üstə", "bu ağaclar", "Bəlkə yaxın olsaydılar", "Arxa durub bir-birinə", "Qurumazdı", "Qarağaclar, qarağaclar... (8, 219).

Ekomədəniyyətdə insanın hər zaman təbiətə ehtiyacı var, o mənəvi ehtiyacı ödəmək üçün təbiətlə ünsiyyət qurur, dərdini bölüşür, ortaq məqamlar təbiətlə ünsiyyətdə meydana çıxır.

Ekocəmiyyət modeli insan-təbiət arasında disharmoniya, tərəflər arasında əlaqələrin qırılması, nizamın pozulması, ekoloji böhranın yaranmasına gətirib çıxardı. Bu isə insan-təbiət münasibətlərindən keçid alaraq insan-cəmiyyət əlaqələrinə, ekoloji böhranın yaratdığı problemlərin çərçivəsində psixoloji, fəlsəfi, ictimai-sosial məsələlərin simvollaşmasına, bədii düşüncədə ekopoetika və ekotənqidin əsasında yeni simvolik modelin yaranmasına gətirib çıxardı.

**Problemin aktuallığı.** Müasir dövrdə insan-təbiət münasivətləri arasında tarazlığın pozulması, disharmoniya, ekoloji böhranın yaranması bir çox sahələrdə olduğu kimi ədəbiyyatda da yeni yanaşma metodlarının, termin və anlayışların meydana çıxmasına zəmin yaradır. İnsan-təbiət münasibətlərində yeni tərəflərin üzə çıxarılıb, müasir yanaşma metodlarına əsasən təhlil edilməsi mövzunun aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi.** XX əsr Azərbaycan şeirində ekomədəniyyətdən ekocəmiyyətə keçiddə bədii simvolun struktur-semantik model dəyişimi nəzəri və bədii nümunələr əsasında tədqiq olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən XX əsr Azərbaycan şeirində bədii simvol problemi ilə məşğul olan tədqiqatçılar yararlana bilərlər.

## Ədəbiyyat

1. Липин, С.А. Человек глазами природы. М.: Советский писатель, 1985, стр.163-164.
2. Qasım Qasımzadə. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1988, 336 s; s. 13.
3. Qarayev Yaşar. Seşilmiş əsərləri. 5 cilddə, III c., Bakı, Elm, 2015, 908 s; s.588.
4. Eliade, M. (2003). Dinler Tarihine Giriş. (L. Arslan, çev.). İstanbul: Kabalcı Yayınevi, s.269.
5. Baheaddin Ögel. Türk mitolojisi. İki cilddə, II c., İstanbul, Milli Egitim basımevi, 1971, 342 s; s 151-167.
6. Eda Turançı, Özlem Özgen. Türk kültüründe ağaç sembolizmi ve filmlere yansıması, səs.160. https://dergipark.org.tr/tr/download/article-file/710282
7. Eliade, M. (2005). Dinler Tarihi (İnançlar ve İbadetlerin Morfolojisi). (M. Ünal, çev.). Konya: Serhat Kitabevi. 2005, s.316-317.
8. Yaqub Musa. Bu dünyanın qara daşı göyərməz. Bakı, Azərnəşr, 1997, s.219.

**Г.А. Гараева**

## Интеграция экокультуры в экообщество в художественном символе
## Резюме

Экологический кризис, утрата связей в отношениях человека и природы, безразличное отношение человека к природе меняет механизм воздействия многих символических образов, противоречия между отношениями человека и общества, понятия культуры и культа, решение серьезных проблем. проблемы в диалоге личности и общества, который подвергся духовно-нравственной эрозии и направлен на взаимопонимание.

В ходе исследования изменение функции знаков и символов, реализующих культурные

коды при нарушении экологического баланса в новой модели культуры и общества, приведены примеры поэзии XX века - С. Вургун, Р. Рза, Х. Ариф, Н. Хазри, М. Ягуб, Г. Гасымзаде и др. . будут исследованы на основе его творчества.

**G.A.Garayeva**

**Integration from eco-culture to eco-society in the artistic symbol**
**Summary**

The ecological crisis, the loss of relations in human-nature relations, the indifferent attitude of man to nature changes the mechanism of influence of many symbolic images, the contradictions between human-society relations, the concept of culture and cult, the solution of serious problems in the dialogue of the individual and society, which has been subjected to spiritual and moral erosion, and is aimed at understanding.

In the course of the research, the change of the function of the signs and symbols implementing the cultural codes in the violation of the ecological balance in the new culture and society model, will be investigated based on examples of 20th century poetry - creativity of S.Vurgun, R. Rza, H. Arif, N. Khazri, M.Yaqub, G. Gasimzadeh and others.

**Redaksiyaya daxil olub:** 02.12.2024